# Şux təsniflər ifaçısı

**Ötən əsrin yetmişinci illərinin sonları idi. Mərhum xanəndə Əlibaba Məmmədovun rəhbərlik etdiyi "Humayun" Xalq Çalğı Alətləri Ansamblının solisti, həmyerlimiz və bir az uzaq olsa da, qohumumuz Təhmiraz Şirinovla harasa getməli idik. O, yaxın qohumu olan Oktay Kərimova demişdi ki, filarmoniyada məşqimiz var, əmidən icazə alım (onlar hamısı Əlibaba Məmmədova əmi deyirdilər) məşqdə oturun (filarmoniya rəhbərliyi məşq zamanı zala heç kəsi buraxmasa da, Oktay "əmi"nin köməyi ilə bizim üçün icazə almışdı), iş saatı qurtaran kimi gedək.**



Oturduq. Məmmədbağır Bağırzadənin, Zümrüd Məmmədovanın və Təhmiraz Şirinovun (həmin gün Səxavət Məmmədov yox idi) çıxışlarından sonra Teymur Mustafayevlə də bir təsnifi məşq etdilər. Hərçənd, Teymur o ansamblın solisti deyildi. Əlibaba müəllimin bir neçə irad, məsləhət və tövsiyəsindən, nəhayət, məmnunluqla gülümsəməsindən sonra məşq bitdi və Teymur Mustafayev çevrilib konsertmeysterə nə isə dedi (Biz o qədər də gözə çarpmayaq deyə, zalın arxa yerlərində oturduğumuza görə onun nə dediyini eşidə bilmədim). Sən demə, xanəndə "Qaytağı" rəqsini sifariş edirmiş. Muğam ansamblının ifasında "Qaytağı"nın ecazkar şəkildə səslənməsi bir heyranlıq idisə, xanəndənin peşəkar rəqqaslardan da gözəl performans nümayiş etdirməsi başqa bir məmnunluq idi…Rəqs bitənə qədər Əlibaba müəllimin üzündən təbəssüm əksilmədi.

## O cümlələri bir də təkrarla

…1999-cu il idi. Bakıdakı Əbilov adına Mədəniyyət evində mərhum həmkarımız Rafiq Salmanovun 50 illiyi münasibətilə geniş musiqili tədbir təşkil olunmuşdu. Çoxsaylı sənət adamları və jurnalistlər iştirak edirdilər. Teymur Mustafayev də orada idi. Söz mənə veriləndə Nəriman Nərimanovun bir sualını və həmin suala özünün verdiyi cavabı bir az təhrif edərək dilə gətirdim. Nərimanovun sual və cavabı belə idi: "Bizim uşaqlar Şekspiri, Puşkini, Tolstoyu oxumalıdırlarmı? Əlbəttə, oxumalıdırlar, ancaq Nizamini, Füzulini və Axundovu oxuduqdan sonra". O arqumenti müasir günlərimizə uyğunlaşdıraraq təkrar etdim:

"Bizim gənclərimiz rok, pop, rep kimi əcnəbi musiqilərə qulaq asmalıdırlarmı? Əlbəttə, Əlbəttə, dinləməlidirlər. Ancaq Seyidin, Cabbarın, Xanın, Ağabalanın, Teymurun ifalarını dinləyib öyrənəndən sonra. Zalda gənclər daha çox idi və hamısı bu münasibəti alqışladılar.

Bunu eşidən Teymur Mustafayev kiməsə nə isə dedi. Həmin adam qalxıb getdi və əlində maqnitofon qayıtdı. Tədbir qurtaranda xanəndə məndən xahiş etdi ki, çıxışımın həmin cümlələrini maqnitofon üçün təkrar edim. Təkrarladım.

## Şairi görəndə özünə deyərsən

Teymur Mustafayevin oxuduğu toylardan birində həmkarımız Mübariz Süleymanlıya dedim: "Azərbaycan dilində "sariban" sözü yoxdur, sarvan sözü var. Bəs Teymur müəllim niyə muğamda "sariban" deyir? Mübariz də gedib bu sualı xanəndənin özünə verdi. Cavab çox qısa oldu: "O sualı şairi görəndə özünə verərsən!".

***İttifaq MİRZƏBƏYLİ***

Xalq qəzeti .- 2024.- 3 mart, № 49.- S.10.